*Sumqayıt şəhər Mərkəzləşdirilmiş Kitabxana sistemi*

*S.Vurğun adına Mərkəzi Kitabxana*

*Metodika – biblioqrafiya şöbəsi*

# Sözə bağlı ömür



*Mirvarid Dilbazi - 100*

*Sumqayıt - 2012*

## *Mirvarid Dilbazinin 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

2012-ci ilin avqust ayında müasir Azərbaycan poeziyasının görkəmli nümayəndəsi, xalq şairi Mirvarid Paşa qızı Dilbazinin anadan olmasının 100 ili tamam olur.

Mirvarid Dilbazi ədəbiyyatımızı yeni-yeni obrazlarla zənginləşdirən sənətkardır. Onun yaradıcılığının başlıca mövzusunu xalqımızın zəngin tarixi keçmişi və yurdumuzun misilsiz gözəlliklərinin tərənnümü təşkil etmişdir. Şairin çoxsaylı lirik əsərləri vətəndaşlıq duyğularının yüksək poetik ifadəsidir.

Azərbaycan ədəbiyyatının inkişafında mühüm xidmətləri olan Mirvarid Dilbazinin 100 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Mirvarid Dilbazinin 100 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 16 may 2012-ci il.*

**Dilbazilər XX əsrdə**

Dilbazilər soyadı Nadir şahla bağlıdır. Bu söz Molla Alıya deyilib: əcəb dilbaz əst. Mənası: "əcəb ürəkli adamdır". Molla Alı ocağının oğullarından biri Əbdürrəhman ağa "Şair" təxəllüsü ilə ədəbiyyat tariximizdə iz qoyub. F.Köçərlinin "Azərbaycan ədəbiyyatı" kitabında Əbdürrəhman ağa, Hacı Rəhim ağa Vəhidi, ana tərəfi Dilbazilər olan Kazım ağa Salik, Mustafa ağa Arif (mühacirət ədəbiyyatımızın ilk nümayəndələrindən biri) haqqında məlumat qələmə alınıb. Xalq şairi 1994-cü ildə çap olunmuş "Bənövşələr üstə göz yaşları" xatirələr kitabında (Bəhruz Dilbazinin sponsorluğu ilə nəşr olunub) yazıb: "17, 18 və 19-cu yüzilliklərin axırına qədər nəslimiz ziyalı-mülkədar nəsli təmsil etmişdir. Ziyalı nəsli təmsil edənlərin ölümündən sonra nəsildə bir boşluq əmələ gəlib. Hacı Rəhim ağa Vəhidi təxəllüsün oğlanları, qızı bu boşluğu doldursalar da, yenə də azlıq edib. Nəslimizdə müdrik, xalq hörməti qazanmış, Tiflisdə, Gəncədə mötəbər sayılan, çoxsaylı ziyalı dostları olan Böyük ağa, Çingiz ağa, Əbdürrəhim ağa, Baba Hüseyn ağa, İsmayıl ağa və adlarını unutduğum adlı-sanlı, səxavətli, xeyirxah yaşlı nəsli təmsil edən kişilər də yetişmişdi. Cavan atam da əmizadələrinin xeyirxah duyğuları ilə tərbiyələnib, inkişafa can atırdı. Sinfi mənsubiyyətlərinə görə, rast gəldikləri məhrumiyyətlərə, maneələrə baxmayaraq nəslimizdən üç kənd təsərrüfatı elmləri namizədi - Hacı Dilbazi, Xanım Dilbazi (millət vəkili Arif Rəhimzadənin anası), Rəşid Dilbazi (onlar da məktəbdən-məktəbə qovulmasaydılar, elmdə daha uca yer tuta bilərdilər), tibb elmləri doktoru Nəcməddin Hacıyev (Dilbazi), bir xalq aktrisası - Əminə Dilbazi, ömürlərini xalq maarifinə həsr etmiş iki qocaman pedaqoq: Vəli Dilbazi, "Məhəbbət qocalmır", "Ağ yasəmənlər" povestlərinin müəllifi Yaqut Dilbazi çıxmışdır. Bunların da hərəsinin faciəli bir həyatı olmuşdur". (İqtisad elmləri doktoru, professor Əsəd Dilbazov, tanınmış təhsil işçiləri Fərhad Dilbazov, Ağalar Dilbazov da bu sıraya aiddir).

## Həyat yolundan sətirlər

Mirvarid Dilbazi 1912-ci il avqustun 19-da Qazax mahalının Musagöy kəndinin yaylaq yerlərindən olan Ağqayada əsilzadə Dilbazilər mühitində - Paşa bəyin ailəsində dünyaya göz açmışdı. Atasını erkən itirmiş M.Dilbazi Daş Salahlıda babası Mustafa ağanın mülkündə, Damcılının, Göyəzənin ətəklərində, Qazaxın ulu yurd yerləri olan Dilican yaylaqlarında, əsrarəngiz təbiətin qoynunda böyümüşdü. Böyüdüyü məişət və mədəni mühit, tərbiyə aldığı doğmaların şəxsi nümunəsi və tövsiyələri onun bütöv və tutumlu bir şəxsiyyət kimi formalaşmasında münbit zəmin olmuşdur. M.Paşa qızı Daş Salahlıdakı Heydər əfəndinin ibtidai məktəbində təhsilə başlamışdır. 1920-ci ildə Mədinə xanım Qiyasbəyli onu, başqa yeniyetmə qızlarla bərabər Bakıya - darülmüəllimata gətirmişdir. M.Dilbazi seminariya ilə bağlı xatirələrində G.Yusubova, A.Əmirov, N.Şahsuvarov, C.Əfəndizadə, A.Musaxanlı kimi tanınmış müəllimlərlə bağlı səmimi fikirlər qələmə almışdır. "Bizim müəllimlərimiz" adlı yazının əvvəlində oxuyuruq: Müəllimlərimiz namuslu, vüqarlı, qeyrət məktəbi bitirmiş ziyalı vətənpərvərlər idilər. Burada hər şey şagirdin istedadı ilə ölçülürdü. Odur ki, o illərdə qız və oğlan seminariyalarında oxuyanlar arasında çoxlu istedadlar yetişdi. Axşamlar Nərimanov arvadı Gülsüm xanımla vaxt tapıb məktəbimizə gəlirdi. Hamımız onların başına toplaşırdıq. Doktor bizə şeir əzbərlədirdi, nəğmə oxutdururdu, dərslərimizi yoxlayırdı. Hər dəfə bizə keçmişdən, gələcəkdən maraqlı söhbətlər edirdi. Xüsusilə gələcək haqqında elə şirin danışırdı ki, biz uşaqlar quş olub, o gözəl gələcəyə uçmaq istəyirdik. Nərimanov özü də buna inanırdı. O, fikrə gedəndə biz çiyninə söykənir, ona sığınırdıq. Məktəbimizdən gedəndə isə yaman darıxırdıq. Doktor Nərimanov bizim üçün dünyanın ən əziz, ən doğma, ən maraqlı insanlarından biri idi. Bir axşam yenə məktəbin çıraqları yandı, böyük salonda doktor Nərimanovun ətrafına toplaşmışdıq. O, bizdən gec ayrılıb getdi. Bir neçə ay gözümüz yolda qaldı, Nərimanov gəlmədi. Demə, onu Moskvaya aparıblarmış. 1925-ci ildə Nərimanovun ölüm xəbərini eşitdik. Bacısı Yaqut Dilbazi (politoloq Vəfa Quluzadənin anası) ilə burada dövrün ziyalı qadınları olmuş M.Qiyasbəyli, Ş.Əfəndizadə, B.Köçərli kimi müəllimlərdən dərs almış, nəzarətləri altında həyata hazırlanmış Mirvarid Dilbazi Qızlar Seminariyasını bitirəndən sonra Biləcəridəki onillik dəmiryol məktəbində çalışaraq bacarıqlı müəllim kimi tanınmışdır. 1928-ci ildə şəhərə - Zavokzalnı küçəsindəki rus məktəbinə dəyişdirilən M.Dilbazi ali təhsil almaq arzusu ilə yaşamışdır. Hər iki bacı APİ-yə qəbul olunmuş, lakin maddi sıxıntıya görə böyük bacı Yaqut Paşa qızı 19 nömrəli məktəbdə işləmiş, kiçik bacının ali təhsil almasına şərait yaratmışdır. Sonralar "Bənövşələr üstündə göz yaşları" kitabında M.Dilbazi yazacaq: 1929-cu ildə Ali Pedaqoji İnstitutun ədəbiyyat-ictimaiyyat fakültəsinə daxil oldum. S.Rəhman, C.Xəndan, M.Rahim də burada oxuyurdular. Müəllimlərdən Ə.Nazim, Ə.Sultanlı, B.Çobanzadə yadımdadır. Əli Sultanlının qərb, Əli Nazimin proletar ədəbiyyatından dərs dedikləri yadımdadır. 26 yaşından dul qalmış analarını Bakıya gətirən 2 müəllim bacı o dövrün ağrı-acısını yaşamışdır: "Bacım Yaqutla mən bir "ləğv" olunmuşların qalqısı idik. Odur ki, bizim haqqımızda yaxşı insanlar yaxşı söz deməkdən çəkinirdilər. Şükür ki, pis söz də deyən yoxdu. Mərkəzdə oxuduğumuz ali məktəblərdən Xanlıqlar, Daş Salahlı kəndlərinə bizim haqqımızda göndərilən sorğulara xeyrimizə cavablar gəlirdi. Biz iki bacı, bir ana camaatın köməyi ilə sürgünlərdən, qırğınlardan uzaq olduq. Lakin maddi məhrumiyyətin

pəncəsindən qurtara bilmədik. Çünki var-yoxumuz babamın evində qalmışdı. İçərişəhərdə məşhur folklorçu Əbülqasım Hüseynzadənin evində 9-10 kv. m. ölçüsündə bir otağımız vardı. Bu otaqda bir dəmir kravat, bir kiçik divan, bir qarğı kitab rəfi, bir kiçik yemək stolundan başqa bir şey yox idi. Biz iki bacı orta məktəbdə müəllimlik edirdik. Qeyrətli ana bu az pulla bizi gözütox, ürəyişad, gələcəyə ümidlə dolandırdı. O illər ölkədə hər şey qıt, bəlkə də yox idi. Geyim-geçim üçün hökumət qızıl mağazası açmışdı. Biz iki bacı da seminariyadan aldığımız iki qızıl medalı və anamızın əldə olan-qalan qızıl ziynətlərini verib oradan bir-iki dəst paltarlıq parça aldıq". 1932-ci ildə ali məktəbi bitirən Mirvarid Dilbazi Qubaya işə göndərilmiş, 2 il Quba Partiya Məktəbində çalışmışdır. Bakıya qayıdan Dilbazi "Şərq qadını" jurnalında ədəbi işçi kimi fəaliyyət göstərmişdir. Onu jurnala redaktor təyin etmək istəyirlər, şairə olmaq arzusunu bildirən Mirvarid xanım 4 il (1934-1938) Dövlət Muzeyində baş elmi işçi və şöbə müdiri işləmişdir. Bir neçə ay Moskva yaxınlığındakı Moleyevka deyilən yerdə ədəbi kurslarda olması onun sənət, dünya ədəbiyyatı haqqında məlumatını genişləndirmişdir. Beləliklə, o, muzeydəki işdən çıxıb bədii yaradıcılıqla məşğul olmuşdur. M.Dilbazi sovet dövründə iki dəfə "Şərəf nişanı" ordeni, "Qafqazın müdafiəsi üçün", "Əməkdə fərqlənməyə görə" medalları ilə təltif edilmişdi. Mirvarid Dilbazi "xalq şairi" fəxri adını 67 yaşında almışdır. 1979-cu ildə Ukraynada Azərbaycan ədəbiyyat və incəsənəti ongünlüyündə iştirak edərkən onun çıxışları çox hərarətlə qarşılanmışdır. MK katibi Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevə bu barədə məlumat vermiş, Azərbaycan KP MK bürosunda ona bu fəxri adın verilməsi məsələsi həll olunmuşdur. Ümummilli lider Heydər Əliyev sonralar Mirvarid xanımın yubileyində bilavasitə iştirak etmiş, xalq şairini böyük hörmət və ehtiramla təbrik etmişdir. M.Dilbazi 2001-ci il iyulun 12-də dünyasını dəyişdi.

## Ədəbi irsi haqqında

Mirvarid Dilbazinin ilk mətbu şeiri 1927-ci ildə işıq üzü görmüş "Qadınların hürriyyəti" olub. İlk kitabı - "Bizim səsimiz" 1934-cü ildə nəşr edilib. Sonrakı illərdə "Vətən eşqi", "Xatirələr", "Bahardan məktub", "Nağıllar", "Gülbahar", "Lalənin ağacları" kitabları çapdan buraxılıb. Şairin "Məhsəti", "Əlcəzairli qız", "Partizan Aliyə" poemaları, "Göyçək Fatma", "Muğanda bahar" uşaq pyesləri və s. əsərləri oxucu auditoriyası qazanmış sənət nümunələridir. 1967-1968-ci illərdə Mirvarid xanımın iki cilddə, 1982-83-cü illərdə üç cilddə "Seçilmiş əsərləri" böyük tirajla buraxılıb. "Poeziyasında quru, adamı utandıracaq bir misra belə" olmayan (Məmməd Namaz) Mirvarid Dilbazi həm də nəğməkar şair idi. Bəstəkar Ağabacı Rzayeva onun "Çoban Qara", "Evimizə gəlin gəlir", "Anam yadıma düşdü", "Laylay", "Azərbaycan elləri" şeirlərinə dillər əzbəri olan, könülləri oxşayan mahnılar bəstələmişdir. M.Dilbazi dünya və türk xalqları ədəbiyyatlarından etdiyi tərcümələrlə də tanınmışdı. Akademik Bəkir Nəbiyev onun müasirləri olan qadın sənətçilər arasında mövqeyini belə dəyərləndirib: "Gözəllik daşıyıcılarının və gözəlliyi yaradanların bu qvardiyasına başçılıq etmək şərəfi istedadlı xalq şairi Mirvarid Dilbaziyə nəsib olmuşdur".

Mirvarid Dilbazi 1928-ci ildən Azərbaycan Proletar Yazıçılar Cəmiyyətində keçirilən məclislərdə iştirak etmişdir. Azərbaycan bədii fikrinin görkəmli nümayəndələri ilə görüşlər, söhbətlər sonradan həmin ədəbi şəxsiyyətləri səciyyələndirən xatirə cizgilərinə çevrilmişdir. Bu baxımdan nəcib, həyalı, mötəbər A.Şaiq, xalqın sonsuz məhəbbətini qazanmış S.Vurğun, başıpapaqlılardan qorxan bir qıza namuslu qardaş münasibəti göstərən S.Rüstəm, çox sadə, səmimi, saf xilqətli M.Müşfiq, okeanda inci axtaranlara oxşayan M.Hüseyn, sözün əsl mənasında ziyalı Y.V.Çəmənzəminli, "Xalq işinə çox lazımlı, müsbət bir şəxsiyyət" (S.Vurğun) olan M.İbrahimov, xalq ənənə və adətlərini bilən S.Rəhimov, mülayim, ağıllı-kamallı N.Rəfibəyli, tədbirli, mədəni R.Rza, yoldaşlıq və dostluqda möhkəm və dönməz O.Sarıvəlli, xalqın milli şairi Ə.Cəmil, mənəvi təmizliyin nümunəsi Ə.Vəliyev haqqında xatirələr ürəklə, məhəbbətlə, səmimiyyətlə qələmə alınmışdır. Mirvarid Paşa qızı ömrü boyu kimsədən təmənna ummamış, kimsəyə yük olmamışdır. Bircə həmdərdi qələm olmuşdur. Bütün dərdlərini, kədər və sevinclərini qələmlə demiş şair xalqımızın qələbəsini görmək arzusu ilə yaşayırdı. M.Dilbazi uşaqlıq illərini xatırladığı şeirlərinin birində yazıb:

Avey dağım, mən zirvəndə itəydim,

Bir gül olub daş sinəndə bitəydim...

Ağrılı-acılı həyat yolu keçmiş xalq şairi bütün varlığı ilə Vətənə, elə-obaya bağlı idi. Vaxtilə Ağdamın Gülablı obasında dincəlmiş Mirvarid xanıma sonralar qızlar bənövşə açılanda bahar ərməğanı göndərmişdilər: "...dəftər vərəqləri arasında qurumuş bir cüt bənövşəni görəndə onların üstünə göz yaşlarım töküldü. Bənövşələr üstə ilk göz yaşlarım altı yaşımda, bu göz yaşlarım isə 80 yaşımda töküldü..."



# Kitabları

## Müharibəyə qədər işıq üzü görən kitabları

- Bizim səsimiz 1934
- İlk bahar 1937

## Müharibə mövzusuna həsr olunmuş kitabları

- Döyüş mahnıları 1941
- Kamal 1942
- Ağarzayev 1942
- Neft 1942
- Vətən eşqi 1942
- Qoçaq ataların qoçaq övladlarına 1942
- Xatirələr 1945

## Sonrakı dövrlərdə çap olunan kitabları

- Sənətkarın xəyalı 1948
- "Seçilmiş şerlər" 1957
- Məhəbbət bizimlə qoşa doğulur. Bakı: Gənclik, 1959, 227 s.
- Şerlər. Bakı: Azərnəşr, 1962, 22 s.
- Xatirələr olan yerdə 1964
- Həyat lövhələri 1967
- Bənövşələr üşüyəndə 1970
- Ana qanadı (şeirlər, poemalar və hekayələr). Bakı: Gənclik, 1972, 489 s.
- Yasəmən fəsli 1976
- Dağ çiçəyi. Bakı: Gənclik, 1977, 320 s.
- Seçilmiş əsərləri (üç cilddə) 1981-1983. Bakı: Yazıçı, I cild, 324 s.; II cild, 336 s.; III cild, 218 s.
- Qar çiçəkləri (şeirlər, poemalar, pyeslər). BakıI Gənclik, 1984, 280 s.
- Durnalar ötüşəndə. Bakı: Yazıçı, 1989, 272 s.
- Çiçəkdən-çiçəyə. Bakı: Gənclik, 1991, 287 s.
- Seçilmiş əsərləri. Bakı: Lider, 2004, 278 s.

## Uşaqlar üçün yazdığı kitablar

- Nağıllar 1940
- Şeirlər 1951
- Kiçik dostlarıma 1956
- Gülbahar 1957
- Yaz gəlir (Bahar nəğmələri) 1968
- Lalənin ağacları 1970
- Abşeron bağlarında (hekayələr, kiçik və orta yaşlı məktəblilər üçün). Bakı: Gənclik, 1984, 96 s.

## Rus dilində əsərləri

- Вспоминаю вас (стихи). Баку: Азернешр, 1964, 51 стр.
- Яблоневая ветка. Москва: Художественная литература, 1965, 151 стр.

## M.Dilbazi yaddaşlarda

Vətənin vüqarı olan dağın sinəsində bir gül olmaq istəyi ilə yaşayan şair haqqında tanınmış tədqiqatçı-publisist İsmayıl Umudlu ("Dilbazilər" tarixi-bioqrafik araşdırmasının müəllifi. Bakı, 2007, 392 s.) yazır: "Doxsan yaşı haqlamağa bircə ili qalmışdı Mirvarid xanımın. Hələ dünənə qədər şirin bir Qazax ləhcəsi ilə danışdığı ətirli sözünü-söhbətini televiziyadan eşidir, yorulmadan onun danışdıqlarını sonadək dinləyirdik. Onunla mətbuat müsahibələrini - yeni bir mətləbi özümüz üçün kəşf etmək inamı ilə səbirlə oxuyurduq. Ömrünün son çağlarına qədər şeir dünyasından da ayrılmadı Mirvarid xanım. Ara-sıra lirik şeir ərməğanını oxucularına çatdırmağı da unutmurdu.

...Mirvarid ana böyüklüyündə sadəliyini dünyadan köçərkən də gözlədi. Fəxri xiyaban istəmədi. Onu vəsiyyətinə əsasən Dağlıq qəbiristanlıqda anası Cavahir xanımın, sevgili bacısı Yaqut xanımın yanında torpağa tapşırdıq...". Filologiya elmləri doktoru, professor, yazıçı-dramaturq Aqşin Babayev M.Dilbazinin yaşadığı binanın qarşısında xatirə lövhəsi vurularkən demişdir: "Mirvarid Dilbazi dünyasını dəyişib, ancaq o, ikinci həyatını yaşayır. O, əbədi sənəti ilə hər birimizin qəlbində silinməz izlər qoyub".

## Ədəbiyyat və Mədəniyyət xadimləri,

## qələm dostları və oxucuları M.Dilbazi haqqında

1. M.Dilbazi ilhamını xalqdan, onun mənalı keçmişindən, səadətli bu günündən və daha parlaq gələcəyindən alan böyük istedad sahibidir.

**B.Nəbiyev**

2. Olduqca şad və fərəhli bir ürəklə deyə bilərik ki, balaca Məhsətimiz-Mirvarid Dilbazi son əsərlərində şeirdən gözlədiyimiz gözəllik nümunələrini verməyə başlamışdır.Onun yaratdığı insan obrazlarıolduqca məzmunlu, mənalı və dolğundur.

**M.S.Ordubadi**

3. Mirvarid Dilbazinin kitablarını vərəqləyən oxucu həmişə incə ruhlu səmimi bir şair, ağıllı, nəcib, təvazökar bir müsahib, qayğıkeş və zəhmətsevər bir insanla üz-üzə gəlir.

**Ə.Cəmil**

4. Mirvarid Dilbazi sözün geniş mənasında beynəlmiləlçi, vətənpərvər, dostluğun nəğməkarıdır.

**Ə.Vəliyev**

5. Mirvarid Dilbazinin şeirlərindəki hərarət, təsir onlardakı dərin səmimiyyətin nəticəsidir.

**H.Orucəli**

6. M.Dilbazinin şəxsiyyəti ilə yaradıcılıq amalı, fərdi insan keyfiyyətləri ilə sənət aləmi arasında mənalı bir ahəngdarlıq duyulmaqdadır.

**M.Əlioğlu**

7. Hansı üfüqlərə ucalsan da sən yenə yerin cazibə qüvvəsində qalırsan. Sənin poeziyanı doğma torpaqdan, onun zəngin tarixindən, qələbələr dolu müasir həyatından ayrı təsəvvür etmək olmaz.

**N.Xəzri**

8. Dilbazi çox incə həyat müşahidələrindən dərin məna çıxaran, bədii ümumiləşdirmələr yoluyla gedən şairədir. Emosional məharəti onun şeirlərinin birinci zinətidir.

**Q.Qasımzadə**

9. O, bütün həyatını ədəbiyyata həsr edən, fikrini-qəmini böyük bacı bildiyi poeziya ilə bölüşüb təsəlli tapan mehriban ana ürəkli şair, titrək şair qəlbli anadır.

**M.İbrahim**

## Mirvarid Dilbazinin həyat və fəaliyyətinin

## əsas tarixləri

**1912-ci il 10 avqust** – Qazax rayonunun Musagöy kəndində anadan olmuşdur.

**1921-ci il** - Bakı qız seminariyasına daxil olmuşdur.

**1927-ci il** - Bakı dəmir yolu məktəbində müəllim vəzifəsində işləmişdir.

**1929-cu il** - Azərbaycan Dövlət Pedaqoji institutunun ədəbiyyat-ictimaiyyət fakültəsinə daxil olmuşdur.

**1932-ci il** - Quba partiya məktəbinə ədəbiyyat müəllimi təyin olunmuş, "Bolşevik Zeynəb" poemasını yazmışdır.

**1934-cü il** - "Bizim səsimiz" adlı ilk şeirlər kitabını nəşr etdirmişdir.

**1935-1938-ci illər** – Azərbaycan SSR Elmlər Akademiyasının əlyazmaları fondunda şöbə müdiri vəzifəsində işləmişdir. "İlk bahar" adlı şeirlər məcmuəsini çap etdirmişdir.

**1939-cu il** - "Şərəf nişanı"ordeni ilə təltif olunmuş, Bakı Sovetinə deputat seçilmişdir. "Sasunlu David" dastanını dilimizə tərcümə etmişdir.

**1940-cı il** - Kiçik yaşlı uşaqlara "Bahardan məktub"adlı kitabını təqdim etmişdir.

**1941-ci il** - "Mahnılar", "Neft" rus dilində isə "Nağıllar" və "Şeirlər"kitablarını çap etdirmişdir.

**1942-ci il** - "Qoçaq ataların qoçaq övladları", "Vətən eşqi", "Döyüş mahnıları", "Kamal" kitablarını oxuculara təqdim etmişdir.

**1944-cü il** - "Qafqazın müdafiəsi üçün" medalı ilə təltif olunmuşdur.

**1945-ci il** - 1941-45-ci illər Böyük Vətən müharibəsi dövründə "Əmək igidliyinə görə"medalına layiq görülmüşdür. "Xatirələr" kitabını çap etdirmişdir.

**1946-cı il** - "Bahar" və Günəşin eşqi" kitablarını çapdan buraxmışdır.

**1947-ci il** - Azərnəşr rus dilində "Şeirlər"məcmuəsini çapdan buraxmışdır.

**1951-ci il** - "Şeirlər" və "Mənim nənəm"(rus dilində) kitabları çapdan çıxmışdır.

**1952-ci il** - Kiçik yaşlı uşaqlara "Qardaşlar"kitabını təqdim etmişdir.

**1956-57-ci illər** – "Balaca dostlarıma" və "Seçilmiş şeirlər" çapdan çıxmışdır.

**1959-cu il** - M.Dilbazi ikinci dəfə “Şərəf nişanı” ordeninə layiq görülmüşdür.

**1962-ci il** - Şairin kitabxanası seriyasından “Şeirlər” məcmuəsi nəşr edilmişdir.

**1967-ci il -** Azərbaycan SSR Əməkdar Mədəniyyət işçisi fəxri ada layiq görülmüşdür.

**1968-ci il** – “Qabaqcıl Maarif Xadimi”fəxri ada layiq görülmüşdür.

**1970-ci il** – “Şərəfli əməyə görə”, “Lenin yubiley medalı”na layiq görülmüşdür.

**1972-ci il** – “Ana qadını” kitabı çapdan çıxmışdır.

**1977-ci il** - “Dağ çiçəyi” və “Partizan Aliyə”kitabları nəşr edilmişdir.

**1982-ci il -** “Qırmızı Əmək Bayrağı”ordeni ilə təltif edilmişdir.

**2001-ci il 12 iyul -** Vəfat etmişdir.

## Kitabxanalarda təbliği

Qeyd etmək lazımdır ki, Mirvarid Dilbazinin çoxşaxəli zəngin irsinin geniş oxucu kütləsinə çatdırılması üçün bütün mədəni-maarif müəssisələri, o cümlədən kitabxanalar qarşısında təxirəsalınmaz vəzifələr durur. Bunun həyata keçirilməsi üçün ilk növbədə geniş və məzmunlu tədbirlər planı işlənib hazırlanmalıdır.

Mirvarid Dilbazinin bütün əsərlərinin və onun haqqında nəşr olunmuş kitabların, eləcə də dövri mətbuat materiallarının çoxsaylı oxuculara çatdırılması üçün bütün kitabxanalar, xüsusən də MKS-lər əyani və şifahi təbliğatın: kitab sərgilərindən, kitabxana plakatlarından, stendlərdən, söhbətlərdən, oxucu konfranslarından, sual-cavablardan, biblioqrafik xülasələrdən, məruzə və mühazirələrdən və s. vasitələrdən məqsədə uyğun şəkildə istifadə etməlidirlər.

Əyani təbliğat daha geniş oxucu kütləsinin sistemli şəkildə əhatə edə bilir və onların mütaliəsinə müsbət təsir göstərir. Kitab sərgiləri və kitabxana plakatları 15-20 gündən tez dəyişdirilmir. Həmin müddətdə ona mümkün qədər çox oxucu baxa bilir. Sərgilərdə kitab, yaxud onların üz qabıqları nümayiş etdirilməli və bununla yanaşı, yeri gəldikcə, illüstrasiya materiallarından, sitatlardan da istifadə olunmalıdır. Kitabxanalarda "Mirvarid Dilbazi -100", "Xalq şairi", "Uşaqların sevimlisi" və s. başlıqlar altında kitab sərgiləri, kitabxana plakatları, məruzələr və mühazirələr təşkil etmək olar.

"Mirvarid Dilbazi-100" başlıqlı **kitab sərgisinin** təxmini sxemini veririk.




**1.** Başlıq:

"Mirvarid Dilbazi -100"

**2.** Mirvarid Dilbazinin şəkli.



**3.** Mirvarid Dilbazinin seçilmiş əsərləri.

**4.** Sərgidə veriləcək sitatlar:

1. M.Dilbazi ilhamını xalqdan, onun mənalı keçmişindən, səadətli bu günündən və daha parlaq gələcəyindən alan böyük istedad sahibidir.

**B.Nəbiyev**

2. Dilbazi çox incə həyat müşahidələrindən dərin məna çıxaran, bədii ümumiləşdirmələr yoluyla gedən şairədir. Emosional məharəti onun şeirlərinin birinci zinətidir.

**Q.Qasımzadə**

**5.** Haqqında kitablarda:

Ə.Əhmədova. Bu ellərə vurulmuşam. Bakı: Yazıçı, 1978, 79 s.

H.Həmidova. Mirvarid Dilbazi: Biblioqrafik göstəricilər. Bakı: M.F.Axundov kitabxanasının nəşriyyatı, 1990, 130 s.

B.Nəbiyev. Söz ürəkdən gələndə. Bakı: Yazıçı, 1984, 282 s.

**6.** Haqqında dövri mətbuatda

Şairin zəngin yaradıcılığını geniş kütlələrə çatdırmaq üçün **sual – cavab gecəsindən** də istifadə etmək məqsədə uygundur:

1. M.Dilbazi nə vaxt və harada anadan olmuşdur?
2. M.Dilbazi Bakı qızlar seminariyasına nə vaxt daxil olmuşdur?
3. M.Dilbazinin ilk şeirlər kitabı hansıdır və neçənci ildə nəşr edilmişdir?
4. Hansı kitabları müharibə dövründə yazılmışdır?
5. Kiçik yaşlı uşaqlar üçün hansı kitabları vardı?
6. İlk mətbu şeiri hansıdır?
7. M.Dilbazi hansı vəzifələrdə işləmişdir? və s.

Kütləvi – şifahi işin ən təsirli və geniş yayılmış metodlarından söhbəti, mühazirəni, konfrans və seminarları da göstərmək olar. "Çiçək ətirli, yaz təravətli", "Gözəlliyin poeziyası" və s.adlı söhbət, mühazirə keçirmək olar. Söhbətləri qrup ilə və ayrı-ayrı şəxslərlə keçirmək olar.

**Oxucu konfransı** keçirilərkən mövzu tam əhatə olunmalıdır. Kitabxanaçı konfransın keçirilməsi üçün qabaqcadan ayrıca plan tərtib etməlidir. Planda keçiriləcək tədbirin adı, giriş sözü və cıxış edənlərin adları göstərilməlidir.Tədbirdən əvvəl elan və dəvətnamə hazırlanır. Konfransın maraqlı keçməsi üçün ziyalılar cəlb edilməlidir. Ilk növbədə kitabxanaçı tədbirin mövzusu üzrə məlumat verməlidir. **"Gözəlliyin poeziyası"** adlı oxucu konfransının mövzuları:

1. Mirvarid Dilbazinin həyat və yaradıcılığı.
2. M.Dilbazi yaradıcılığında Böyük Vətən müharibəsi.
3. "Məhsəti" poeması haqqında.
4. Uşaqların və gənclərin sevimli sənətkarı.
5. M.Dilbazi yaradıcılığında ana məhəbbəti və s.

Oxucular arasında Mirvarid Dilbazinin şeirləri üzrə şeir müsabiqəsinin keçirilməsi məqsədəuyğundur. Şeir müsabiqəsinin keçirilməsi üçün kitabxanaçı əvvəlcədən şeirləri tapmalı və oxucular arasında bölməlidir. Ən yaxşı söyləyən oxucu müdiriyyət tərəfindən mükafatlandırılmalıdır.

Oxucular arasında bədii ədəbiyyatı təbliğ etməyin ən geniş yayılmış şifahi üsulu kitab müzakirəsi, oxucu konfransı, ədəbi-bədii gecədir. “Məhəbbət bizimlə qoşa doğulur” və s. adlarda **ədəbi-bədii** gecə keçirmək olar. Ədəbi-bədii gecəyə ədəbiyyat müəllimləri, qələm yoldaşları dəvət oluna bilər. Tədbir iki hissəli olmalıdır. Birinci hissədə Mirvarid Dilbazinin həyat və yaradıcılığı haqqında məruzə olmalı, çıxışlar dinlənilməlidir. Tədbirin ikinci hissəsində isə onun şeirlərindən parçalar söylənilməli, səhnəciklər göstərilməli, mahnılar səslənməlidir.

Ədəbi-bədii gecənin keçirilməsinə kömək məqsədilə hazırladığımız ssenarini təqdim edirik.

*(Aparıcılar zala daxil olur və tədbir iştirakçılarını salamlayır)*

**I Aparıcı:** Keçmiş Xanlıqlar adlanan indiki Musaköy Qazaxın mənzərəli, gözəl kəndlərindən biri. Yazda nərgizlərin, lalələrin, bənövşələrin, ağ, çəhrayı, mavi, narıncı çiçəklərlə bəzənmiş meşə ağaclarının, əlvan buludların, aylı gecələrin, işıqlı sübh göylərinin rəngi bir-birinə qarışıb möcüzəli gözəllik yaradan bu kənddə Mirvarid Dilbazinin uşaqlıq illəri keçmişdir.

**II Aparıcı:** Təbiətlə onun ünsiyyəti də buradan başlamışdır. Mirvarid Dilbazi şairlər nəslindəndir. Onun Vaqifin müasiri olan babalarından Hacı Rəhim ağa və Əbdürrəhman ağa Dilbazilər dövrün alim, fazil adamları olmuşlar.

**I Aparıcı:** M.Dilbazi ədəbi fəaliyyətə gənc yaşlarından başlamışdır. Onun azadlığa çıxmış Azərbaycan qadınının səsi eşidilən ilk şeirləri müxtəlif qəzet və jurnallarda çap olunurdu. M.Dilbazi birinci kitabını “Bizim səsimiz”adlandırmışdı. Burada şairənin 20-ci illərin axırlarında yazılmış Azərbaycan qadınlarının yeni həyat yollarını tərənnüm edən “Zəhra”, “Qurtuluş”,”Qadın” kimi şeirlərinə rast gəlmək olurdu.

**I Aparıcı:** *Oxucunun ifasında “Müdrilklik” şeirini dinləyək.*

**Oxucu:** Ona dərd söyləsən danışma uzun,
Yazılı kitabdır onunçün üzün.
Oxuyar fikrini o bir baxışda,
Bilər bahardasan, ya da ki, qışda.

Duyar qəhərlənmiş tutqun səsindən,
Gözündə kipriyin titrəməsindən.
Qayğısız ötənlər olmuş yanından,
Tək çıxa bilmirsən dərd ümmanından.

Təbiət insanı yaratmayıb tək,
İnsanı insana göndərib kömək.
Sən varkən, onunçün söz nəyə gərək!
O sözsüz oxuyur canlı kitabı.
İnsan iztirabı, insan əzabı
Onda əks etməsə göz nəyə gərək?

Çapmır o hər yana söz səməndini,
Bir sözlə, yüz sözün açır bəndini...

Ömürdən bizlərə verilən illər,
Mənasız keçməsin qoy heç bir anın.
Böyüdək vətənə müdriknəsillər,
Müdriklər elidir Azərbaycanım!

**I Aparıcı:** M.Dilbazinin Böyük Vətən müharibəsi mövzusuna həsr etdiyi əsərlərin dili sadə, axıcı, rəvandır. Sanki şairə bunları yazarkən"nəfəsini belə dərməmiş", sözünü birnəfəsə deyib qurtarmışdır. Bütün bunlar M.Dilbazinin böyük müvəffəqiyyətidir. Axı, müəyyən tarixi hadisələrlə əlaqədar olaraq yazılmış əsərlər bəzən bir müddətdən sonra unudulur. Yalnız həqiqi sənətkar qələmindən çıxan və duyularaq yazılan əsərlər həmişə oxunaqlı olur, sevilir və yaşayır.

**II Aparıcı:** Böyük Vətən müharibəsi illərində M.Dilbazi xalqımızın tarixi keçmişinə həsr etdiyi "Məhsəti"adlı poemasını yazıb çap etdirdi. Poemada şahların zülmü, Məhsətinin başına gətirilən dözülməz əzablar, onunla Nizami arasındakı möhkəm dostluq əlaqələrinin təsviri real şəkildə əks etdirilmişdir.

**I Aparıcı:** "Məhsəti"poemasından Məhsəti ilə Xətib oğlunun dialoqundan bir parça

*(Qoca gedir, Məhsəti dalğın, pəncərə önündə dalınca baxıb deyir)*

**Məhsəti: -** Şahların daş-qaşla dolanda tacı,
Çoxalır millətin yoxsulu, acı.

*Bu anda Xətib oğlu qapıdan girir. Oxu, yayı, yapıncını bir yana atıb, əlini Məhsətinin çiyninə qoyur.*

**Xətib oğlu: -** Şairəm, gözəlim, bu hal nə haldır,
Yenə bu nə fikir, bu nə xəyaldır?
Dalmısan dünyanın dərd ümmanına...
Şairəm, and olsun sənin canına,
Sənsiz yetim olar kişi vüqarım.
Sənsiz darıxmışam, mənim nigarım!
*(Xətib oğlu onun əllərini öpür)*
Bu incə, bu zərif şair əlləri
Bəzəyib ömrümdən keçən illəri.
Sənsiz heç olmasın mənim bir anım!

**Məhsəti: -** Sən də xoş gəlmisən, mənim sultanım!
Məni viran edər sənsizlik qəmi,
Səninlə abaddır könlüm aləmi.
Gəldi qapımıza yoxsul, ixtiyar,
Altı şəhid olmuş əsgər atası.
Gəlib, burda bizə gətirdi pənah.

Onu öz gözünlə görsəydin hərgah.
Əgər eşitsəydin çəkdiyi ahı,
Mənim tək, tüstüsüz yanardın sən də.
Özümü unutdum o ah çəkəndə.
Verdim mən mehrimə düşən bağları,
Həm o torpaqları ona hədiyyə.
Xətrinə dəyməsin, bu sənsiz oldu,
Mənim bəxşeyişim bir parça torpaq,
Onun bəxşeyişi altı oğuldu
Yurda, vətənə.

**Xətib oğlu: -** Mənim varım, yoxum sənə halaldır,
Var-dövlət can deyil adicə maldır.
Mənim mələyim!
Sənindir bu canım, çarpan ürəyim.

**II Aparıcı:** Mirvarid xanım bir qadın, bir ana, bir müəllim kimi uşaqları sevir, hələ müharibədən əvvəl də ara-sıra onlar üçün əsərlər yazırdı. Onun uşaqlar üçün yazdığı "Bahardan məktub" adlı kitabı 1940-cı ildə nəşr olunmuşdu.

**I Aparıcı:** M.Dilbazinin "Mənim nənəm" şeirindəki məktəbli qızın sevincinə səbəb onun işgüzarlığından doğan qürur hissidir:

Çay qaynadıb, süfrə açıb,
Eləyirəm ona kömək.
Məndən kiçik bacımım da,
Paltarını geydirirəm.
Qardaşımın əl-üzünü
Yuyub, onu yedirdirəm.
Çünki bizdən əvvəl durub,
Atam, anam gedir işə.
Evdə qoca nənəmizə,
Köməkçiyəm mən həmişə.

**II Aparıcı:** Şeiri oxuyan balaca məktəblilərin özlərini bu işgüzar qıza oxşadacaqlarına, evdə kiçik bacı və qardaşlarına, qoca nənə və babalarına kömək edəcəklərinə inanırsan. Çünki burada şairə"belə et"demir, necə etmək lazım gəldiyini göstərir.

**I Aparıcı:** Mirvarid Dilbazi həm də təbiət vurğunudur. O ölkəmizin bir çox yerlərini gəzmiş, ana torpağın füsunkar gözəlliklərindən ilhama gəlib bir sıra gözəl əsərlər yaratmışdır. M.Dilbazinin Vətən məhəbbəti mövzusunda yazdığı şeirlər adicə təbiət lövhələri deyil, eyni zamanda həlim təbiətli ananın, mürəkkəb hadisələrə nüfuz edən insan - əsgərin, vətəndaş şairənin həyata baxışını əks etdirən parçalardır.

**II Aparıcı:** Torpağa bax, iqlimə bax, təbiətə bax!
Fəsilləri bir-birinə qovuşduraraq,
Qar üstünə ətir saçır, gül üstünə qar,

Xəzəllərin arasından boylanır bahar.

Burada Vətənimizin rəngarəng təbiəti, təkraredilməz gözəlliyi bir rəssam məharəti ilə kağıza köçürülüb.

*Oxucunun ifasında "Kəndimiz yadıma düşdü" şeirni dinləyək:*

Qar çiçəyi qarı deşdi,
Yadıma kəndimiz düşdü:
Bizim səfalı kəndimiz,
Bahar havalı kəndimiz.

Fikrim uçdu Avey dağa,
Ordan bənövşə yığmağa...
Əlimdə şehli dəstələr
Endim"Damcılı"bulağa.
Ayrılmışdım gör nə vaxtdan
Mən bu eldən, bu torpaqdan
Anam su içən bulaqdan.

Dayandım orda bir qədər,
Acı, şirin xatirələr
Hər yandan qılınc çəkdilər,
Qanımı, qansız tökdülər...

Durub burdan yavaş-yavaş
Vəlixana qalxdım birbaş.
İlk qədəm basdığım yerlər,
Anamın ilk laylasına
İlk qulaq asdığım yerlər
Məni məndən elə aldı,
Təzə fikirlərə saldı.

Baxdım-baxdım...burdan bizə
Həsrəti qalan dağlara,
Sinəmdə qövr etdi yara...

**II Aparıcı:** M.Dilbazinin poeziyası incə, saf səsi ilə çoxdan ürəklərə yol tapıb, xalqımızın mənəvi sərvətinə çevrilmişdir. Bu sərvət milyonlarla oxucunu daxilən zənginləşdirir, duyğularına xoş bir sığal çəkir, onları qanadlandırır. Bu xəzinədə Vətən məhəbbəti, yüksək əxlaqi sifətlər olan bir ürəyin ehtirasları, öz balasını oxşayan bir ananın titrək nəvazişləri görünür.

**I Aparıcı:** M.Dilbazi gənc nəslimizə məhz belə bir poeziya bəxş etmişdir. Onun əsərləri daima dilimizdə yaşayacaqdır.

SON

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**


- Əhmədova Ə. Bu ellərə vurulmuşam. – B.: Yazıçı, 1978.- 79 s.
- Həmidova H. Mirvarid Dilbazi: Biblioqrafik göstəricilər.- B.: M.F.Axundov kitabxanasının nəşriyyatı, 1990.- 130 s.
- Nəbiyev B. Ədəbi düşüncələr.- B.: Yazıçı, 1984.- 282 s.
- Son mənzil: (Xalq şairi Mirvarid Dilbazi ilə vida mərasimi)//Azərbaycan qəzeti.- 2001.- 13 iyul.- S.3.

- www.google.az
- www.adam.az